**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TİKİNTİ MÜƏSSİSƏLƏRİNİN SƏMƏRƏLİ FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN TƏŞKİLATİ-İQTİSADİ ASPEKTLƏRİ

İxtisas: 5311.01 – "Müəssisələrin təşkili və idarə olunması"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: Nahid Nazim oğlu Almasov

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2022**

Dissertasiya işi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Sənayenin iqtisadiyyatı" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru,
**İsmayılov Vilayət İbrahim oğlu**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Aslanzadə İlham Alıcı oğlu**

iqtisad elmləri namizədi, dosent
**İsayev Kamran Hidayət oğlu**

iqtisad elmləri namizədi, dosent
**Əlizadə Zakir Mövsüm oğlu**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.22 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın müxbir üzvü, i.e.d. professor,
**İmanov Qorxmaz Cahangir oğlu**

imza

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Rüstəmov İlham Samil oğlu**

imza

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Səfərov Qənimət Əsəd oğlu**

imza

İMZANI TƏSDİQ EDİRƏM
ADNSU-nun Elmi katibi
dosent N.Əliyeva

## İşin ümumi xarakteristikası

**Tədqiqatın aktuallığı və işlənilmə səviyyəsi.** İqtisadi sistemdə tikinti kompleksi onun əsas tərkib elementlərindən biri hesab edilir. Tikinti sferası regionun onunla sıx əlaqəsi olan digər sahələrin inkişafını təmin etməklə mövcud iqtisadi şəraitdə investisiya fəaliyyətində iştirak edən tərəflərin xarakterini, həmçinin onun strukturunun keyfiyyətini dəyişir və hər birinin funksiyalarını bölüşdürür. Onu da qeyd edək ki, tikinti sferasının bütün tərkib elementləri iqtisadi sahələrdə fəaliyyətini davam etdirən təşkilatlarla, vençur qrupları və banklarla, digər maliyyə təşkilatları və qrupları ilə, həmçinin institusional qurumlarla mütəmadi şəkildə əlaqəli olur.

Mövcud dövrün əsas xarakterik elementi olan bazar iqtisadiyyatı tikinti sahəsinə daxil olan bütün müəssisələrin təsərrüfat-istehsal xarakterli fəaliyyətini həm təmin edir, həm də onun fəaliyyət dairəsinin genişləndirilməsini tələb edir və onların sıx əlaqəsinin qurulmasını təkmilləşdirir. Tikinti bazarında baş verən dəyişikliyi özündə ehtiva edən və onunla əlaqəli olan problemlər bu sahədəki təşkilatların idarə edilməsi üzrə təkmilləşdirilmə və konsentrasiya prosesinin icra edilməsində xüsusi aktuallığa malikdir, bu qeyd edilənlər isə müəssisələrin nisbətən təkmil təşkilati quruluşuna aid olmasını tələb edir. Bu sahədə xarici təcrübə göstərir ki, tikintintidə fəaliyyət göstərən müəssisələrin təşkilati quruluşunun təkmilləşdirilməsi təsərrüfat-istehsal nöqteyi nəzərindən yerinə yetirilən əməliyyatların effektiv nəticəsinin əldə edilməsi məqsədilə daimi şəkildə həm təhlil edilən, həm də düşünülmüş şəkildə dəyişdirilə bilən çevik element hesab edilir.

Tikinti sferasında istehsal-təsərrüfat fəaliyyəti ilə məşğul olan təşkilatın quruluşu onun bloklara bölünməsi vasitəsilə formalaşır. İstehsal vahidləri şəklində olan bloklar biri-biri ilə iri vahidlər şəklində birləşir və bu əməliyyat (proses) şöbələşmə (departamentləşmə) hesab edilir. Tikinti təşkilatları öz funksiyalarını icra edərkən mərhlələrə ayrılan müxtəlif məsələlərin həllini təmin edir ki, bu mərhələlərə onun strukturunun formalaşmasını, struktur

bölmələri üzrə əlaqənin gözlənilməsini, nəzarət fəaliyyətinin təkmilləşdirilməsi ilə həm təşkilat və bölmələr arasında, həm də bölmələr və işçi personal arasında bağlılıq əlaqələrinin təmin edilməsini aid etmək olar.

Tikinti kompleksinin inkişafına əlverişli şəraiti formalaşdıran əsas elementlərdən biri də dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi hesab edilir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi” ilə müəyyən edilən tədbirlər planında dövlət-özəl tərəfdaşlığı layihələrinin inkişaf etdirilməsinin nəzərdə tutulması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, tərəflər arasında tərəfdaşlığın təmin edilməsi bu sahəyə nəzarət edən dövlət orqanları ilə özəl müəssisələrin maliyyə münasibətlərinin canlanmasına səbəb olur və bu canlanma mövcud iqtisadi vəziyyətdəki reallıqlarla şərtləndirilir. Bu tip layihələrin həyata keçirilməsində əsas məqsəd dövlətin büdcədən məhdud istifadəsinə nail olmaq, onun yüklənməsinin qarşısını almaq üçün fərdi resursları cəlb etmək, həmçinin dövlət idarəçiliyinin imkanlarını, sahibkarlığa professional və yenilikçi yanaşmanı birləşdirməkdən ibarətdir. Tikintinin əsas xüsusiyyətləri onunla birbaşa və dolayı əlaqəsi olan bir sıra subyektlərin, o cümlədən investorların, müştərilərin, tikinti aparılacaq sahə sahibinin, obyekti tikən podratçının, istifadəçinin və layihələndiricinin birgə iştirakının təmin edilməsindən ibarətdir. Ölkəmizdə tikinti sferasında istifadə olunan məhsulların istehsal sahəsinin ləng inkişafı bir sıra problemlərlə əlaqəlidir ki, bunlara da texniki normalaşdırmanın beynəlxalq standarta cavab verməməsi, qiymətqoymanın köhnəlməsi, istehsalda texnika ilə təchizatın və əmək məhsuldarlığının aşağı səviyyədə olması və s. aid etmək olar. Onu da qeyd edək ki, tikinti sferası ölkə iqtisadiyyatının formalaşmasında əsas sahələrdən biri olmaqla bərabər əsas fondyaradıcı sahələr sırasındadır. Eyni zamanda, iqtisadiyyatın əsas fəaliyyət sahələrindən bir olan tikinti dövri xarakterə malikdir və milli iqtisadiyyatın tendensiyalarına həssas reaksiya verir.

Qeyd olunanlar tikinti müəssisələrinin səmərəli fəaliyyətinin təkmilləşdirilməsinin təşkilati-iqtisadi aspektlərini əhatə edən problemlərin tədqiq edilməsinin aktuallığını şərtləndirir.

Tikinti müəssisələrinin səmərəli fəaliyyətinin təkmilləşdirilməsinin təşkilati-iqtisadi aspektlərini tədqiq edən Azərbaycanın iqtisadçı alimlərinin əsas tədqiqat istiqamətləri, həmçinin onların əldə etdikləri mühüm nəticələr elmi-təcrübi əhəmiyyətinə görə danılmazdır. Tikinti sektorunda təşkilatların istehsal-təsərrafat xarakterli fəaliyyətinin təkmilləşdirilməsi və onların səmərəliliyinin yüksəldilməsi, həmin proseslərin təkmilləşdirilməsini əhatə edən təşkilati-iqtisadi aspektlərin elmi-metodoloji və təcrübi aspektləri İsmayılov V. İ., Əlirzayev Ə. Q., Hüseynov T. Q., Məmmədov M. A., Kəlbiyev Y. A., Məmmədova K. M., İsrafilzadə Q. M., Nuriyev E. S., Nəcəfzadə Q. A., Fəttahova N. R., Rəhimov V. M., həmçinin rus və digər xarici alimlərdən R. A. Abramov, N. İ. Boqdan, D. İ. Belousova, İ. L. Qonçarov, A. A. Qorbunov, V.V. Qorlov, A. V. Anosova, A.P.Duqelniy, Y. A. Lıtkina, D. A. Makarov, V. B. Melexin, O. Y. Ponkratov, V. R. Alexandru, A. Damçia, M. D. Sarang, L. Y. Tang, F. H. Griffis və s.tərəfindən hərtərəfli tədqiq edilmişdir.

Lakin, qeyd edilən alimlər bu istiqamətdə apardıqları tədqiqatlarda tikinti müəssisələrinin səmərəli fəaliyyətinin təkmilləşdirilməsinin təşkilati-iqtisadi aspektlərinini əhatə edən məsələlərin kompleks həllini qarşılarına məqsəd qoymamışlar. Odur ki, tikinti müəssisələrinin səmərəli fəaliyyətinin təkmilləşdirilməsinin təşkilati-iqtisadi aspektlərini əks etdirən problem məsələlərin kompleks şəkildə araşdırılması istiqamətində tədqiqat işinə ciddi ehtiyac hiss olunur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti ölkənin tikinti sahəsində fəaliyyət göstərən istehsal müəssisələridir. Tədqiqatın predmetini isə tikinti sənayesində istehsalın səmərəliliyini şərtləndirən amillər, müəssisələrin səmərəli fəaliyyətinin təkmilləşdirilməsi tələblərinə cavab verən təşkilati-iqtisadi aspektlərin tədqiq edilmə meyilləri və bu əsasda qanunauyğunluqlar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi tikinti müəssisələrinin səmərəli fəaliyyətini təmin edən təşkilati-iqtisadi aspektlərin araşdırılmasıdır.

Tədqiqat işində qarşıya qoyulmuş məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- tikinti təşkilatlarının səmərəli fəaliyyəti və formalaşması xüsusiyyətlərinin aşkar edilməsi, tikinti layihələrinin idarə edilməsinin müxtəlif yanaşmalar əsasında qruplaşdırılması, müəssisənin maliyyə modelinin konseptual strukturunun işlənilməsi;
- dövlət-özəl tərəfdaşlığının özəl sektora təsirinin əlaqləndirilmə sxeminin verilməsi, yarımçıq qalmış tikinti layihələri üçün dövlət subsidiyalarının, kommersiya kreditlərinin və səhm kapitalının cəlb edilməsinin vacibliyinin müəyyən edilməsi;
- tikintidə istifadə olunan məhsulların keyfiyyətini müəyyən edən metodların müəyyənləşdirilməsi və onların mahiyyətinin əsaslandırılması;
- Azərbaycanda ÜDM-in ümumi həcmi ilə tikinti işlərinin dəyəri, əlavə dəyər və müəssisələrin sayı arasında əlaqə modelinin verilməsi və modelin etibarlılığının yoxlanılması;
- tikinti şirkətlərinin müxtəlif məqsədli obyektləri vaxtında və keyfiyyətlə tikərək təhvil verməsilə əlaqəli yaradılmış iqtisadi vəziyyət və s. göstəricilər əsasında sifarişçi təşkilatların mütəxəssisləri arasında elektron ünvan və anket sorğusunun nəticələri üzrə onların fəaliyyətinin bal metodu ilə qiymətləndirilməsi;
- tikinti şirkətlərinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsi məqsədilə proqram-məqsədli planlaşdırmanın əsas elementlərinin sistemləşdirilməsi və şirkətin dayanıqlı istehsalının təşkili modelinin verilməsi;
- tikinti şirkətlərinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsi prosesinin həyata keçirilməsinin çox mərhələli həllinin təklif edilməsi və tikinti müəssisələrinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsinin kompleks modelinin işlənilməsi;
- tikinti sferasında təşkilatların səmərəli fəaliyyətinin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı qarşıya qoyulan məqsədə uyğun olaraq bir sıra metodlardan istifadə edilmişdir. Birinci və ikinci fəsildə tikinti təşkilatlarının fəaliyyəti və formalaşması xüsusiyyətləri və tikinti müəssisələrinin səmərəli fəaliyyətinin nəzəri aspektlərinin müəyyənləşdirilməsində müqayisəli təhlil metodundan istifadə edilmişdir. Azərbaycan iqtisadiyyatının transformasiyasında tikinti layihələrinin idarəedilməsində təsir göstərən amillərin sistemləşdirilməsi əsasında tikinti şirkətlərinin fəaliyyətinin sorgu metodu ilə qiymətləndirilməsindən istifadə edilmişdir. Tikinti sektorunda işlərin dəyəri, əlavə dəyər və müəssisələrin sayı ilə ÜDM-in həcminin asılılığının müəyyənləşdirilməsi zamanı çoxamilli reqressiya modelindən istifadə edilmişdir. Tədqiqat çərçivəsində tikintidə təşkilati-iqtisadi aspektlərin idarə edilməsinin matris forması və idarəetmə sisteminin təkmilləşdirilməsi metodikasından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1. İqtisadiyyatın transformasiyasında tikinti təşkilatlarının rolu tikinti sferasına təsir edən əsas amillərin tərkibindən asılıdır. Bunun üçün tikinti layihələrinin idarəedilməsinə yanaşmalar, onlara təsir göstərən amillər sistemləşdirilmiş və bu amillərin təsirinin müəyyən edilməsi.

2. Tikinti təşkilatlarının inkişaf etdirilməsində dövlət-özəl tərəfdaşlığının xüsusi əhəmiyyəti danılmazdır. Bu baxımdan dövlət-özəl tərəfdaşlığının özəl sektora təsirinin əlaqləndirilmə sxemi verilməsi, həmçinin yarımçıq qalmış tikinti layihələri üçün dövlət subsidiyalarının, kommersiya kreditlərinin və səhm kapitalının cəlb edilməsinin vacibliyi müəyyən edilməsi.

3. Tikinti şirkətlərinin səmərəli fəaliyyətinin yüksəldilməsinin araşdırılması məqsədi ilə investisiyaların həcminin təhlili göstərir ki, büdcə vəsaiti hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcminin azalması tikinti təşkilatlarına verilən bank kreditləri və öz vəsaitlərinin həcminin artımı ilə şərtləndirilə bilər. Bu məqsədlə,

tədqiqat işində tikinti müəssisəsinin maliyyə modelinin konseptual strukturunun təklif edilməsi.

4. Azərbaycanda tikinti sektorunun inkişafına təsir edən amillərin müəyyən edilməsi, tikinti müəssisələrinin müxtəlif məqsədli obyektləri vaxtında və keyfiyyətlə tikib başa çatdırmasıla əlaqəli yaradılmış iqtisadi vəziyyət və s. göstəricilər əsasında sifarişçi təşkilatların mütəxəssisləri arasında aparılmış sorğunun nəticələri üzrə onların fəaliyyətinin bal metodu ilə qiymətləndirilməsi.

5. Tikinti şirkətlərində işlərin ənənəvi metodunun kökündən dəyişdirilməsinin ən mütərəqqi yolu kimi təşkilati-texnoloji tikinti sistemlərindən istifadənin məqsədəuyğunluğunun və tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə tədbirlərin planlaşdırılmış şəkildə icrasının vacibliyinin əsaslandırlması.

6. Tikinti sferasının təsərrüfat fəaliyyətinin optimallaşdırılması məqsədilə ÜDM-in ümumi həcmi ilə cari qiymətlərlə əlavə dəyər, tikinti işlərinin dəyəri və müəssisələrin sayı arasında əlaqə modelinin verilməsi və modelin etibarlılığının əsaslandırılması.

7. Tikinti şirkətinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsi məqsədilə proqram-məqsədli planlaşdırmanın əsas elementlərinin sistemləşdirilməsi və şirkətin dayanıqlı istehsalının təşkili prosesi modelinin verilməsi.

8. Tikinti şirkətinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsi prosesinin mərhələli həllinin təklifi əsasında onun idarəetmə sisteminin təkmilləşdirilməsinin kompleks modelinin verilməsi.

**Dissertasiya işinin elmi yenilikləri** özündə aşağıdakı elementləri ifadə edir:

- tikinti təşkilatlarının səmərəli fəaliyyəti və formalaşması xüsusiyyətləri aşkar edilmiş, tikinti layihələrinin idarə edilməsinə müxtəlif yanaşmalar qruplaşdırılmış və ənənəvi metodunun kökündən dəyişdirilməsinin ən mütərəqqi yolunun təşkilati-texnoloji tikinti sistemləri (TTTS) olduğu əsaslandırılmışdır;

-tikintidə istifadə olunan məhsulların keyfiyyətini müəyyən edən metodların müəyyənləşdirilməsi və onların mahiyyətinin əsaslandırılması;

- dövlət-özəl tərəfdaşlığının özəl sektora təsirinin əlaqləndirilmə sxemi verilmiş, yarımçıq qalmış tikinti layihələri üçün dövlət subsidiyalarının, kommersiya kreditlərinin və səhm kapitalının cəlb edilməsinin vacibliyi müəyyən edilmiş, həmçinin müəssisənin maliyyə modelinin konseptual strukturu işlənilmişdir;

- ÜDM-in həcmi ilə cari qiymətlələ əlavə dəyər, tikinti işlərinin dəyəri və müəssisələrin sayı arasında əlaqə modeli verilmiş, modelin adekvatlığı yoxlanılmış və interpretasiyası verilmişdir;

- müəssisələrin müxtəlif məqsədli obyektləri icra müddətində və keyfiyyətlə tikib başa çatdırmasıla əlaqəli yaradılmış iqtisadi vəziyyət və digər göstəricilər üzrə sifarişçi təşkilatların mütəxəssisləri arasında aparılmış sorğunun nəticələri bal metodu ilə qiymətləndirilmiş və müəyyən edilmişdir ki, ölkədə tikinti şirkətlərinin fəaliyyətinə optimal şərait yaradılmışdır, lakin onların mövcud fəaliyyəti bir o qədər də yüksək səviyyədə deyildir;

- tikinti şirkətinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsi məqsədilə proqram-məqsədli planlaşdırmanın əsas elementləri sistemləşdirilmiş və şirkətin dayanıqlı istehsalının təşkili modeli verilmişdir;

- tikinti şirkətlərinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsi prosesinin həyata keçirilməsinin çox mərhələli həlli təklif edilmiş və müəssisələrin idarəetmə sisteminin təkmilləşdirilməsinin kompleks modeli işlənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində əsaslandırılan nəzəri-metodiki müddəalar, təklif və tövsiyələr tikinti müəssisələrində səmərəli fəaliyyətin təşkilati-iqtisadi aspektlərinin təkmilləşdirilməsi üzrə təklifləri tətbiq etməklə Azərbaycanın tikinti sferasının qarşısında duran yeni vəzifələrin icrasının sürətləndirilməsinə əlverişli imkan yaradır.

Həmçinin, işdə təklif edilən yanaşmalar tikinti şirkətlərinin səmərəli fəaliyyəti mühitində təşkilati-iqtisadi aspektlərin təkmilləşdirilməsi imkanlarının gerçəkləşdirilməsinin real üstünlüklərini və gələcək perespeltivlərini müəyyən etməyə yönəlmişdir. Elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr tikinti müəssisələrinin səmərəli fəaliyyətinin inkişafına adekvat

şəraitdə onların iqtisadi səmərəliliyinin yüksəldilməsi, ölkədəki sosial problemlərin həll edilməsi məqsədilə istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi -** Tədqiqatın əsas nəticələri yerli və xarici jurnallarda 9 məqalə, 5 konfrans və 1 tezis materiallarında dərc edilmişdir. Beşi xaricdə, ikisi RİNÇ, biri EBSCO, Econ Lit və ikisi Web of Science bazasında dərc olunmuşdur. 3 beynəlxalq və 3 yerli konfranslarda çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiyanın strukturu tədqiqatın məqsədi və qarşıya qoyulmuş vəzifələrilə müəyyən olunur. Dissertasiya işi giriş, üç fəsil (I fəsil-73912 işarə, II fəsil-85256 işarə, III fəsil – 60857 işarə), nəticə (4433 işarə), ümumi həcmi (224458), 132 adda ədəbiyyatdan və qəbul edilmiş standartlara uyğun 151 səhifə kompüter yazısından ibarətdir.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU

**GİRİŞ**

**I FƏSİL. TİKİNTİ MÜƏSSİSƏLƏRİNİN SƏMƏRƏLİ FƏALİYYƏTİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**

1.1. Tikinti müəssisələrinin strukturu, fəaliyyəti və formalaşması xüsusiyyətləri

1.2. Tikinti müəssisələrinin səmərəli fəaliyyətinin metodoloji aspektləri

1.3. Tikinti müəssisələrində səmərəli fəaliyyətin təşkili prinsipləri

**II FƏSİL. AZƏRBAYCANDA TİKİNTİ SFERASI ŞƏRAİTİNİN VƏ FƏALİYYƏT NƏTİCƏLƏRİNİN İQTİSADİ QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Azərbaycan iqtisadiyyatının transformasiyasında tikinti müəssisələrinin rolu

2.2. Azərbaycanın tikinti sferası müəssisələrində mövcud vəziyyətin təhlili

2.3. Tikintinin təşkili və idarə olunmasında təşkilati-texnoloji tikinti sistemlərinin rolu

**III FƏSİL. AZƏRBAYCANDA TİKİNTİ SFERASININ SƏMƏRƏLİ İNKİŞAF İSTİQAMƏTLƏRİNİN FORMALAŞMASI**
3.1. Azərbaycanda ÜDM-in həcmi ilə əlavə dəyər, tikinti işlərinin dəyəri və müəssisələrin sayı arasında əlaqə modeli
3.2. Tikinti müəssisələrinin inkişafında proqram-məqsədli planlaşdırmanın rolu
3.3. Tikinti müəssisələrinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsi
**NƏTİCƏ**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS MÜDDƏALAR

**1. İqtisadiyyatın transformasiyasında tikinti təşkilatlarının rolu tikinti sferasına təsir edən əsas amillərin tərkibindən asılıdır. Bunun üçün tikinti layihələrinin idarəedilməsinə yanaşmalar, onlara təsir göstərən amillər sistemləşdirilmiş və bu amillərin təsirinin müəyyən edilməsi (8, s. 60-63; 14, pp.1-15).**

Regionların iqtisadi sərbəstliyinin yüksəldilməsi tikinti komplekslərinin idarəedilməsinin yeni prinsipial mexanizminin işlənilməsini tələb edir. Belə ki, tikinti komplekslərinin yeni idarəetmə mexanizmi bilavasitə tikinti müəssisələrinin səmərəli fəaliyyətini təmin etməlidir. Bu halda tikinti komplekslərinin strukturunun yeniləşdirilməsi, onun təşkilati quruluşu və idarəetmə strukturunun transformasiyası, əsas istehsal fondlarının bərpası, təsərrüfat subyektlərinin bir-biri arasında qarşılıqlı əlaqənin qurulması prinsipial şəkildə yeni iqtisadi münasibətlərin formalaşması ilə şərtləndirilir. Müxtəlif tədqiqatçılar bazar şəraitində fəaliyyət göstərən müasir tikinti təşkilatlarının mühüm xüsusiyyətlərinə təşkilat vahidi, istehsal vasitələrinin müəyyən kompleksi, əmlak öhdəliyi, inhisarçı münasibətlər, əməliyyat-təsərrüfat və iqtisadi sərbəstliyi və s. aid olduğunu qeyd edirlər.

Tikinti təşkilatının strukturunun formalaşması prosesi onun strukturunun dəqiqləşdirilməsi, idarəetmə üsullarının müəyyənləşdirilməsi, bölmələrin iş rejimi və onlar arasında münasibətlərin yaradılması, təşkilatın resurslarla təmin edilməsi və daxili mədəniyyətin yaradılması daxildir. Tədqiqat işində tikinti layihələrinin idarəedilməsinin ənənəvi və idarəetmə yanaşmaları onlara təsir göstərən amillər əsasında sistemləşdirilmiş və müəllif tərəfindən ikinci yanaşmaya üstünlüyün verilməsi məqsədəuyğun hesab edilmişdir.Beləliklə, istehsalın təşkili funksiyası layihə-tikinti və idarəetmə təşkilatları arasında bölüşdürülür. İnşaat proseslərinin səmərəliliyini və keyfiyyətini daim artırmağa yönəldilmiş yüksək mütəşəkkil istehsalat qruplarının çatışmazlığının vacib səbəblərindən biri bazar iqtisadiyyatının dayanıqlı inkişafı şəraitində istehsal qurğularının formalaşması və istifadəsinin nəzəri və praktiki aspektlərinin kifayət qədər inkişaf etməməsi və son nəticələrin əldə edilməsinə istiqamətlənmiş tikinti istehsalının sistemli şəkildə fəalyyətinin təşkil edilməməsi hesab edilir. Qeyd etmək lazımdır ki, təşkil və idarəetmə tikintinin sərbəst prosesidir, bir-biri ilə sıx əlaqəlidir və bir-birinə təsir göstərir, lakin qarşılıqlı əvəzedilə bilmirlər. Bu aspektdən də tikinti müəssisəsinin təşkili və idarəedilməsi üzrə təkmilləşdirilmənin əsas məsələləri onun ölçüsünün optimallığı, yəni tikinti təşkilatının gücü, tikinti sənayesinin bazasının mərkəzləşdirilməsi və qeyri-mərkəzləşdirilməsi, təşkilati strukturun ixtisaslaşmasının dəqiqliyi və tikinti prosesinin idarə edilməsinə nəzarət hesab edilir.

**2.Tikinti təşkilatlarının inkişaf etdirilməsində dövlət-özəl tərəfdaşlığının xüsusi əhəmiyyəti danılmazdır. Bu baxımdan dövlət-özəl tərəfdaşlığının özəl sektora təsirinin əlaqləndirilmə sxemi verilməsi, həmçinin yarımçıq qalmış tikinti layihələri üçün dövlət subsidiyalarının, kommersiya kreditlərinin və səhm kapitalının cəlb edilməsinin vacibliyi müəyyən edilməsi (1, s. 125-135).**

Bir sıra xarici tədqiqatçılar tikinti təşkilatlarının səmərəli inkişafının təmin edilməsində dövlət-özəl tərəfdaşlığına yüksək diqqət ayrılmasını xüsusilə vurğulayırlar. Tikintidə dövlət-özəl

tərəfdaşlığı (DÖT) layihələrinin tədqatçıları L. Tang, Q. Shen[1] və s. əldə etdikləri nəticələrə əsaslanaraq gələcək tədqiqatlarda özəl sektorun dövlət tərəfindən bu istiqamətə yönəldilməsinin zəruriliyini təklif edirlər. DÖT-nın əsas problemlərdən biri özəl sektorun tənzimləməsi və maliyyələşmənin əlçatan olması hesab edilir. Dövlət-özəl tərəfdaşlığı üzrə yaradılan tikinti müəssisələrinin tipləri seçildikdə real vəziyyətə uyğun olmasına xüsusi diqqət yetirilməlidir. Bu tip birgə müəssisələrin uğursuzluq dərəcəsi yüksək olduğundan tərəfdaşlara müəssisə yaradılan ölkədəki həm daxili, həm də xarici şəraitə nəzarət etmək tövsiyə olunmaqla daxili və xarici risk amillərinin birgə təsiri elemetlərinin birgə fəaliyyətinin təmin olunması vacib şərtlərdəndir. Tikinti sektorunun səmərəli fəaliyyətinə təkan verən dövlət-özəl tərəfdaşlığının özəl sektorun iştirakına təsirinin əlaqə mexanizmi şəkil 1-də verilir.

Son illərdə Azərbaycanda da tikinti sektorunun inkişaf etdirilməsi məqsədi ilə mütəmadi olaraq ölkə rəhbərliyi islahatlar aparır və bu istiqamətdə hökumətin sosial siyasətinin əsas məqsədlərindən biri də vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Ölkə əhalisinin sayının artması onların mənzilə olan tələbatının təmin olunması məsələsini, xüsusilə az və orta təminatlı əhali təbəqəsinin, gənc ailələrin mənzil probleminin həll edilməsini prioritet vəzifə kimi müəyyənləşdirir. Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi” ilə müəyyən edilən tədbirlər planına uyğun olaraq Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən dövlət-özəl tərəfdaşlığı layihələrinin inkişafının genişləndirilməsi tikinti sferasında aparılmış islahatların məqsədyönlüyünü və zəruriliyini şərtləndirir.

Ümumiyyətlə, sosial cəhətdən əhəmiyyətli hesab edilən layihələrin icra edilməsi uzunmüddətlidir, bahalıdır və az mənfəət əldə edilir. Bu zaman dövət və özəl tərəfdaşlığının qarşılıqlı münasibətlərinin inkişafında dövlət subsidiyaları, kommersiya

krediti və səhm kapitalının cəlb edilməsi kimi müxtəlif variantlardan istifadə edilməsi məqsədəuyğundur.




Şəkil 1. Dövlət-özəl tərəfdaşlığının özəl sektora təsirinin əlaqələndirilməsi.
Qeyd: müəllif tərtib etmişdir

[1]Tanq, L.Y., Shen, Q., Cheng, E. A review of studies on Public–Private Partnership projects in the construction industry // Journal of Project Management, *-2010.* Volume *28*, no. *7*, -pp. *683–694*

Fikrimizcə, dövlət-özəl tərəfdaşlığı çərçivəsində özəl şirkətlərin uzunmüddətli və yenilikçi müqavilələrinin tətbiq edilməsi nəzəri cəhətdən xidmət keyfiyyətinin yaxşılaşdırılması, özəl sektorla paylaşılan risklərin və xərclərin azaldılması da daxil olmaqla əhəmiyyətli ictimai faydaların əldə edilməsi üçün əlverişli şəraiti formalaşdırır.

**3. Tikinti şirkətlərinin səmərəli fəaliyyətinin yüksəldilməsinin araşdırılması məqsədi ilə investisiyaların həcminin təhlili göstərir ki, büdcə vəsaiti hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcminin azalması tikinti təşkilatlarına verilən bank kreditləri və öz vəsaitlərinin**

**həcminin artımı ilə şərtləndirilə bilər. Bu məqsədlə, tədqiqat işində tikinti müəssisəsinin maliyyə modelinin konseptual strukturunun təklif edilməsi (2, s.152-155; 3, s. 72-76 ).**

Tikinti sferası ölkə infrastrukturunun inkişafında aparıcı mühərrik rolunu oynayır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən qısa müddət keçməsinə baxmayaraq onun tikinti sənayesində əhəmiyyətli dərəcədə artım olmuşdur. Tikinti sahəsində əsas fondların istifadəyə verilmiş həcmi 2000-2020-ci illərdə 45,5 dəfə artmışdır. Eyni zamanda, 2013–2020–ci illərdə maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların srtukturunda müəssisə və təşkilatların vəsaiti hesabına-1,884 milyon manat və ya 24,0%; bank kreditləri hesabına-205,276 milyon manat və ya 23,9% və büdcədənkənar fondların, əhalinin şəxsi vəsaitlərin hesabına- 258,297 milyon manat və ya 25,9% artım olduğu halda, büdcə vəsaiti hesabına-3350,79 milyon manat və ya 41,4% azalma olmuşdur.Qeyd etmək lazımdır ki, büdcə vəsaiti hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcminin azalması tikinti müəssisələrinə verilən bank kreditləri və özlərinin vəsaitinin həcminin artımı ilə şərtləndirilir. Bu məqsədlə müəssisənin maliyyə modelləşdirilməsinin zəruriliyini şərtləndirən amilləri nəzərdən keçirək. Müəssisənin maliyyə modelləşdirilməsi amillərinə aşağıdakılar daxildiır: -gələcəkdə baş verə biləcək qeyri-müəyyənliklər; -müəssisənin müxtəlif bölmələrinin maddi, maliyyə və digər resurslardan istifadə prosesində fəaliyyətinin əlaqələndirilməsinin zəruriliyi; -resursların istifadənin iqtisadi nəticələrinin optimallaşdırılmasını tələb edən məhdudiyyətlər və s.

Qeyd edək ki, müəssisənin fəaliyyətinin maliyyə modelləşdirilməsi məsələsi riyazi asılılıqların köməyi ilə müəyyən edilir. Bu da hər hansı iqtisadi sistemi xarakterizə edən endogen və ekzogen dəyişənlər arasında əlaqə növünün riyazi asılılıqlarla müəyyən edilməsinə gətirib çıxarır. Müəssisənin maliyyə modelinin konseptual strukturunu nəzərdən keçirək (şəkil 2). Şəkildən göründüyü kimi, təklif olunan maliyyə modeli müəyyən dövr ərzində, yəni modelləşdirilmə dövründə müəssisənin əldə edəcəyi nəticənin (Y) müəssisənin giriş məlumatlarından (X), idarəedici

təsirlərdən (İ), məhdudiyyətlərdən (M) və təzminatlardan (T) funksional asılılığını ifadə edir. Bu isə öz növbəsində iqtisadi sistemi xarakterizə edən daxili və xarici dəyişənlər arasında əlaqənin müəyyən edilməsi üçün əlverişli şəraiti formalaşdırır.




**Şəkil 2. Müəssisənin maliyyə modelinin konseptual strukturu**
Qeyd: müəllif tərtib etmişdir

Tədqiqat işində təklif edilən müəssisənin maliyyə modelinin konseptual strukturundan görünür ki, bir tərəfdən, şirkətin fəaliyyəti nə qədər hərtərəfli əks olunsa, modelləşdirmədən əldə ediləcək nəticələri də bir o qədər dəqiq olacaqdır. Bu halda modeldən menecmentin təcrübəsində sonrakı istifadənin səmərəliliyi bir o qədər yüksək olacaqdır. Digər tərəfdən, maliyyə modelinin işlənib hazırlanması qeyri-qənaətbəxş məsələ də ola bilər, belə ki, onun həllinə sərf edilən əmək tutumu bir sıra hallarda onun tətbiqindən əldə ediləcək səmərədən çox ola bilər.

Beləliklə, müəssisənin maliyyə modelinin işlənib hazırlanması zamanı qarşıda duran əsas vəzifələrdən biri minimum göstəricilərin

maksimum informativliyi təmin etməsinin əldə olunmasıdır. Bu məsələnin həllinə isə müəssisənin maliyyə modeli qurulduqda bir neçə blokdan (ssenari şərtləri-biznesin inkişafı şərtləri, cari fəaliyyət, inkişaf proqramının həyata keçirilməsi, maliyyə nəticələrinin proqnozlaşdırılması) ibarət olması şərtində nail olmaq mümkündür.

**4. Azərbaycanda tikinti sektorunun inkişafına təsir edən amillər müəyyən edilmişdir. Müəyyən edilmiş amillər əsasında sifarişçi və vətəndaşlar arasında müəssisələrin səmərəli fəaliyyəti səviyyəsini əhatə edən sorğu aparılmışdır. Aparılmış sorğunun nəticələrinə görə tikinti müəssisələrinin mövcud iqtisadi vəziyyəti qiymətləndirilmidir (7, 170-176).**

Azərbaycanda fəaliyyət göstərən tikinti müəssisələrinin səmərəli fəaliyyətinin təşkilinə ölkədə ÜDM-in həcmində tikinti sektorunun xüsusi çəkisinin yüksək olması, investisiya istiqamətində aktivləşmə və investisiya qoyuluşlarının iqtisadiyyatın real sektorlarına istiqamətləndirilməsi üzrə istehsal gücünün yenilənməsi və genişləndirilməsi, iqtisadi artımın sürətləndirilməsi məqsədi ilə daxili və xarici investorların cəlb edilməsinə nisbətən əlverişli mühitin yaradılması, investisiya aktivliyinin artırılması üçün investisiya prosesinə əhalinin əmanətlərinin cəlb edilməsi və s. kimi amillərin təsir etməsi müəyyən edilmişdir. Bakı şəhəri və Xızı rayonunun Yeni Yaşma qəsəbəsində "Hünər-İnşaat" MMC, "Shans Konstruktion" MMC, "LLZ-tikinti" MMC-də ixtisaslaşdırılmış tikinti işlərinin strukturuna nəzər yetirək (cədvəl 1).

**Cədvəl 1. İnşaat müəssisələrində ixtisaslaşdırılmış tikinti işlərinin strukturu**

| S/N | İxtisaslaşdırılmış tikinti işlərinin strukturu | "Hünər-İnşaat" MMC | | "Shans Konstruk -tion" MMC | | "LLZ-tikinti" MMC | |
|---|---|---|---|---|---|---|---|
| | | Milyon manat | % | Milyon manat | % | Milyon manat | % |
| 1 | Tikinti ərazisinin hazırlanması və kəşfiyyat | 2,9411 | 19,0 | 1,95315 | 18,4 | 3,95147 | 18,9 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | qazıntısının aparılması | | | | | | |
| 2 | Elektrik, su təchizatı və mühəndis avadanlıqlarının quraşdırılması | 4,6439 | 30,0 | 3,30122 | 31,1 | 6,71123 | 32,1 |
| 3 | Bəzək və tamamlayıcı tikinti işləri | 0,6965 | 4,5 | 0,52013 | 4,9 | 1,045362 | 5,0 |
| 4 | Ümumi ixtisaslaşdırılmış tikinti işləri | 7,19814 | 46,5 | 4,84037 | 45,6 | 9,19919 | 44,0 |
| | Cəmi | 15,47964 | 100 | 10,61487 | 100 | 20,90725 | 100 |

Mənbə: ["Hünər-İnşaat" MMC, "Shans Konstruktion" MMC, "LLZ-tikinti" MMC] hesabatı əsasında müəllif tərəfindən tərtib edilmişdir

Məlumatlardan göründüyü kimi, tikinti işlərinin strukturunda ümumi ixtisaslaşdırılmış tikinti işləri, o cümlədən binaların örtüklərinin quraşdırılması, digər qruplara daxil edilməyən ixtisaslaşdırılmış tikinti işlərinin həcmi ümumi tikinti-quraşdırma işlərinin dəyərində ən çöx xüsusi çəkiyə malikdir ki, bu da 44-46,5 faiz hüdudunda dəyişir. Fikrimizcə, təhlil edilən inşaat müəssisələrində cəmi tikinti quraşdırma işlərinin dəyərində ümumi ixtisaslaşdırılmış tikinti işlərinin xüsusi çəkinin bir qədər də çoxaldılması onların icra etdiyi işlərin keyfiyyətinin yüksəldilməsinə təkan verə bilər.

Azərbaycandakı tikinti şirkətlərinin fəaliyyətini və onlarla əlaqəli işlərdə, o cümlədən sifariş edilmiş tikinti, yaşayış, iaşə və digər məqsədli obyektlərin vaxtında, keyfiyyətlə tikilib təhvil verilməsi və digər sorğu suallarının cavablandırılmasında iştirak etmiş sifarişçilər və vətəndaşların qiymətləndirmə nəticələri (Əlavə 3) əsasında müəllif tərəfindən qrafik 1 tərtib edilmişdir. Sorğu məlumatlarının təhlili göstərir ki, Azərbaycanda tikinti şirkətlərinin fəaliyyətinin bal metodu ilə qiymətləndirilməsinə görə ölkədə yaradılmış iqtisadi vəziyyətin orta qiymətləndirmə səviyyəsi 62,0% təşkil etməsinə baxmayaraq, onların digər sorğu göstəricilərindəki




**Qrafik 1.Tikinti şirkətlərinin fəaliyyətinə yaradılmış iqtisadi vəziyyət və s. göstəricilərə görə sorğu əsasında bal metodu ilə qiymətləndirilmə**

Qeyd: Müəllifin Bakı ş., Gəncə ş. və Sumqayıt ş. fəaiyyət göstərən tikinti şirkətlərinin mütəxəssisləri üzrə aparılmış elektron poçt və anket sorğusunda 220 nəfər iştirak etmişdir.

xüsusi çəkisinin istehsal gücündən istifadə səviyyəsi-49,3%; şirkətlərin tikinti və s. avadanlıqlarla təmin edilməsi-40,7%; tikinti şirkətlərinin sahibkarlıq fəaliyyətinin qiymətləndirilməsi-39,3%; şirkətlərin fəaliyyətinin ümumi qiymətləndirilməsi-38,2% və işin planlaşdırılmış müddətə yerinə yetirilməsi-35,3% səviyyəsində olması bu müəssisələrin mövcud vəziyyətdən kifayət qədər yüksək səviyyədə istifadə edə bilməməsini əks etdirir. Buradan belə bir fikir formalaşır ki, ölkədə tikinti şirkətlərinin fəaliyyətinə optimal şərait yaradılmışdır, lakin onların mövcud fəaliyyəti bir o qədər də yüksək səviyyədə deyildir, çünki bu sahədə ortaya çıxan problemlər həm tikinti şirkətlərinin fəaliyyəti və onların idarə edilməsindən qaynaqlanır, həm də tikinti işlərinin planlaşdırılmış müddətə başa

çatdırılmaması, onların istehsal gücündən səmərəli istifadə edilməməsi və s. ilə şərtləndirilə bilər.

**5. Tikinti şirkətlərində işlərin ənənəvi metodunun kökündən dəyişdirilməsinin ən mütərəqqi yolu kimi təşkilati-texnoloji tikinti sistemlərindən istifadənin məqsədəuyğunluğunun və tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə tədbirlərin planlaşdırılmış şəkildə icrasının vacibliyi əsaslandırlmışdır (5, s. 229-238).**

Tikinti sferasında istehsalin təşkili üzrə ənənəvi yanaşmaya nisbətən daha səmərəli sistemlərin geniş tətbiqi istehsalın təşkilati, texniki-təşkilati və iqtisadi səviyyəsinin yüksəldilməsini zəruri edir, bu da öz növbəsində əmək məhsuldarlığının daha yüksək artım tempinə nail olması üçün şərait yaradır.

Tikintidə idarəçiliyin hər səviyyəsində məsul icraçıların lazımi ardıcıllıqla tədbirləri yerinə yetirməsi və kollektivin gücləndirilməsinə olan tələbin koordinasiyasını, həmçinin işlərin icrasına nəzarətin təmin edilməsini əlaqələndirən əmək məhsuldarlığının potensial artımına nail olmaq üçün şəbəkə modeli tərtib edilir. Dissertasiya işində tikintidə maksimum səmərəyə nail olmaq üçün tikiti istehsalının təşkilati-texniki səviyyəsinin (TTTS) tətbiq edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi ardıcıllıqla aparılmalıdır, yəni ilk növbədə yerinə yetirilən əməliyyatların istisna hal kimi tikintidən xaric edilməsi və tikinti sənayesi zavodlarına təhvil verilməsi təmin edilməlidir. Bundan sonra isə TTTS-nin formalaşması məsələləri həll edilməlidir. Tədqiqat işində müəllifin təklif etdiyi təşkilati-texnoloji tikinti sistemindən istifadə etməklə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi aşağıdakı tədbirlərin planlaşdırılmış şəkildə icrasını nəzərdə tutur:

- obyektlərin tikinti-quraşdırma işləri komplekslərinə bölünməsi, onların yerinə yetirilməsi bəzi istehsal dövrünü başa çatdırmağa imkan verir;
- hər bir iş kompleksinin yerinə yetirilməsi üçün maşın, avadanlıq və inventar dəstlərinin mümkün variantlarının formalaşdırılması;

- təşkilati-texnoloji tikinti sisteminin qəbul edilmiş variantlarının texniki-iqtisadi qiymətləndirilməsi;
- təşkilati-texnoloji tikinti sisteminin hər bir variantı ilə kompleks işlərin davametmə müddətinin müəyyən edilməsi;
- təşkilati-texnoloji tikinti sisteminin mümkün variantlarından istifadə etməklə tikinti müəsisəsinin imitasiyalı modelləşdirilməsi;
- təşkilati-texnoloji tikinti sisteminin tətbiqi üçün mümkün olan iş üsullarının qiymətləndirilməsi;
- təşkilati-texnoloji tikinti sisteminin istehsal aparatının konyunktur dəyərinin qiymətləndirilməsi.

**6. Tikinti sferasının təsərrüfat fəaliyyətinin optimallaşdırılması məqsədi ilə ÜDM-in ümumi həcmi ilə əlavə dəyər, tikinti işlərinin dəyəri və müəssisələrin sayı arasında əlaqə modeli verilmiş və modelin adekvatlığı əsaslandırılmışdır (4, pp. 98-100; 6, s. 293-296).**

İqtisadi fəaliyyətlərin digər növlərindən fərqli olaraq tikinti sferasında məhsulun istehsal müddəti və ondan yararlı istifadə dövrü müəyyən olunur. Tikinti sahəsində məhsulun istehsal müddətinin müəyyən edilməsi həmin sahədə qiymətlərin formalaşdırılmasına təsir edən amillərdən biri hesab edilir. Ümumiyyətlə, tikinti məhsulları və yaşayış evlərinin dəyəri bilavasitə xərclər, əlavə xərclər və gəlirə görə formalaşdırılır. Hazırda ölkə üzrə ümumi daxili məhsulun həcmində tikinti işlərinin xüsusi çəkisi ildən-ilə artır. Bununla bağlı Azərbaycanda ÜDM-in həcminin cari qiymətlərlə əlavə dəyər, tikinti işlərinin dəyəri və tikinti sferasında fəaliyyət göstərən müəssisələrin sayından asılılığı arasında əlaqə modeli verilmişdir.

Fərz edək ki, ötən dövr ərzində N (i=1,2,…, N) illərin statistik məlumatları əsasında aşağıda qeyd edilən müvafiq göstəricilərdən ibarət ÜDM-in həcminin proqnozlaşdırılması üçün lazım gələn məlumatlar cədvəl 2-də verilir.

**Cədvəl 2. ÜDM-in həcmi ilə əlavə dəyər, tikinti işlərinin dəyəri və müəssisələrin sayı göstəriciləri**

| Tests | Years | ÜDM-in həcmi, mlyrd. manat, ($y$), $UDM_h$ | Əlavə dəyər, cari qiymətlərlə, mlyrd. manat, ($x_1$), $ƏD_{cg}$ | Tikinti işlərinin dəyəri, mlyd. manat, ($x_2$), $Tİ_d$ | Müəssisələrin sayı, min vahid, ($x_3$), $M_s$ |
|---|---|---|---|---|---|
| 1 | 2010 | 42.465 | 3.4397 | 4.5314 | 1.312 |
| 2 | 2011 | 52.082 | 4.141 | 6.115 | 1.387 |
| 3 | 2012 | 54.744 | 5.5079 | 7.716 | 1.480 |
| 4 | 2013 | 58.182 | 6.7537 | 8.7212 | 1.446 |
| 5 | 2014 | 59.014 | 7.4544 | 8.5919 | 1.444 |
| 6 | 2015 | 54.380 | 6.4995 | 7.3196 | 1.445 |
| 7 | 2016 | 60.425 | 6.3389 | 7.6604 | 1.425 |
| 8 | 2017 | 70.338 | 6.7506 | 7.7621 | 1.524 |
| 9 | 2018 | 80.092 | 6.1834 | 8.4483 | 1.635 |
| 10 | 2019 | 81.896 | 6.0988 | 9.4392 | 1.826 |
| 11 | 2020 | 72.432 | 5.5777 | 9.7788 | 1.901 |

Statistik məlumatlar göstərir ki, ölkə üzrə ümumi daxili məhsulun həcmində tikinti işlərinin xüsusi çəkisi ildən-ilə artır. Bununla bağlı ÜDM-in ümumi həcmi ilə tikinti müəssisələrinin cari qiymətlə əlvaə dəyəri, yerinə yetirdiyi tikinti işlərinin dəyəri və müəssisələrin sayı arasındakı əlaqəni təhlil edək. ÜDM-in həcminin proqnozlaşdırılması üçün ifadə edilən göstəricilər elə seçilməlidir ki, bunlar bilavasitə istehsal həcminin dəyişməsinə bu və ya digər dərəcədə təsir göstərmiş olsun. Odur ki, hesabatın aparılmasında müəyyənləşdirilmiş göstəricilər aşagıdakılar qəbul edilir:

Riyazi ədəbiyyatlarda asılı olmayan dəyişənlərin ($x_1$, $x_2$, $x_3$, ... , $x_n$, ) asılı dəyişənə ($y_i$) "orta hesabla" neçə təsir etdiyini müəyyənləşdirən reqressiya modeli ümumi halda aşağıdakı kimidir:

$$y_i = a_0 + a_1 x_{i1} + a_2 x_{i2} + ... + a_m x_{im} + u_i \, (i = \overline{1, N}), \quad (1)$$

burada: $y_i$ –i-ci ildə ölkə üzrə ÜDM-in həcmi, milyard manat;

$u_i$- çoxamilli modeldə təsadüfi reqressiv xətalardır.

$x_{i1}$, $x_{i2}$, …, $x_{im}$ – ÜDM-in həcminə təsir göstərən amillər qrupu.

Cədvəldən göründüyü kimi bu amillər (m=3) aşağıdakılardır:

$x_{i1}$- i-ci ildə cari qiymətlərlə əlavə dəyəri;

$x_{i2}$- i-ci ildə tikinti şirkətlərinin yerinə yetirdiyi tikinti işlərinin dəyəri;

$x_{i3}$- i-ci ildə tikinti sferasında fəaliyyət göstərən müəssisələrin sayını əks etdirir.

Modeldə $x_0 \cong 1$ köməkçi dəyişəni əlavə etməklə $x_{i0} = 1 (i = \overline{1, N})$

$$y = a_0 x_{i0} + a_1 x_{i1} + a_2 x_{i2} + ... + a_m x_{im} \, . \quad (2)$$

Matris halında (2) sistemini aşağıdakı kimi yazmaq olar:

$$Y = AX + U, \; [52, s.453], \quad (3)$$

burada

$$Y = \begin{bmatrix} y_1 \\ y_2 \\ . \\ . \\ . \\ y_N \end{bmatrix}, \quad X = \left[ (x_{ij})_{1,0}^{N,m} \right], \quad A = \begin{bmatrix} a_0 \\ a_1 \\ . \\ . \\ . \\ a_m \end{bmatrix}, \quad U = \begin{bmatrix} u_1 \\ u_2 \\ . \\ . \\ . \\ u_N \end{bmatrix}$$

.

Burada: $U_i$-reqressiv qalıqlardır ki, onların da kvadratları cəmini $S=\sum_{i=1}^{N} U_i^2$ (4) matrisi şəklində yazılaraq hesablanılır.

$U_i$ təsadüfi kəmiyyətinin avtokorrelyasiya həddinin qiyməti (reqressiya qalığı), bir qayda olaraq Darbin-Uotson kriteriyası adlanan statistik kəmiyyətlərin köməyi ilə hesablanır.

Bizim baxdığımız halda m=3, N=11 olduğu üçün (2) modeli aşağıdakı kimi verilir:

$$y_i = a_0 + a_1x_{i1} + a_2x_{i2} + a_3x_{i3}, \ (i=\overline{1,11}). \quad (5)$$

ƏKKM-nin $a_0$, $a_1$, $a_2$, $a_3$ və korrelyasiya əmsallarının qiymətlərini hesablamaq üçün işdə Setup proqramı tərtib edilərək istifadə edilmişdir. Hesabat nəticəsində qeyd edilən əmsalların, Darbin–Uotson kriteriyası və determinasiya əmsalının müvafiq qiymətləri hesablanmış və nəticələri qeyd olunmuşdur:

$a_0$ =-54.9066; $a_1$ = 6.2127; $a_2$ = -4.2659;

$a_3$ = 74.5916; $R_m$=0.90054; $R^{*2}$=0.81097; $DW$=2.2149.

Kompyüterdə çox əmsallı əlaqə modelindən istifadə etməklə aparılmış hesablama nəticəsində ÜDM-in həcminin proqnozlaşdırılması üçün (7) modeli verilmişdir:

*UDMh=-54.9066 +6.2127ƏDcg -4.2659Tİd +74.5916Ms.* (6)

Darbin-Uotson kriteriyasının $d_l$=0,6 və $d_u$=1,93 statistik kəmiyyətini α=0,05 əhəmiyyətliliyi səviyyəsində təyin etməklə

modeldə faktiki avtokorrelyasiya qalığının olub -olmaması fərziyyəsi yoxlanılır.

1.$DW>d_l$, onda avtokorrelyasiyanın həqiqi qalığının olmaması fərziyəsi rədd edilir.

2.$d_l \leq DW \leq d_u$ halında məsələ açıq qalır.

3.$DW>d_u$ olduqda isə bu fərziyə qəbul olunur. Bizim baxdığımız halda $DW>d_u$, və ya 2.2149> 1,93) olduğu üçün Darbin-Uotson kriteriyasının 5%-li səviyyəsinin həqiqi qiymətində avtokorrelyasiyanın olmaması fərziyyəsi qəbul edilir.

Korrelyasiya əmsalının korrektirovka olunmuş $R^* = \sqrt{R^{*2}} = 0{,}9005$ qiyməti əldə olunan reqressiya modelinin yüksək dərəcədə adekvatlığını göstərir. 3.1.11 modelini tətbiq etməklə ÜDM-in həcminin proqnozlaşdırılması verilr. Bu zaman ÜDM-in həcminə təsir göstərən $x_1$, $x_2$,..., $x_m$ amillər qrupunun proqnoz qiymətləri və faktiki qiymətləri nəzərə alınmaqla sonrakı illərin məlumatlarına əsasən ÜDM-in istehsal həcminin proqnozlaşdırılan qiymətini hesablamaq mümkündür. Beləliklə, ÜDM-in istehsal həcminin proqnozlaşdırılması bizim halda tikinti müəssisələri üzrə yuxarıda qeyd edilmiş müvafiq göstəricilərin məlumatlarına əsasən aparıla bilər. Lakin qeyd etmək lazımdır ki, bu model ölkədə ÜDM-in həcminin iqtisadiyyatın istənilən sahəsindən asılılığının müəyyənləşdirilməsində özünü doğruldur. Model qurulduqdan sonra ÜDM-in həcminin proqnozlaşdırılan qiyməti ilə onun statistik həcminin qiymətləri müqayisə edilməklə müvafiq nəticəyə gəlmək mümkündür.

**7. Tikinti şirkətinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsi məqsədilə proqram-məqsədli planlaşdırmanın əsas elementləri sistemləşdirilmiş və şirkətin dayanıqlı istehsalının təşkili modeli verilmiş və idarəetmənin matris struktundan istifadə edilməsinin məqsədəuyğunluğu təklif edilmişdir (13, s.161-167)**

Proqram-məqsədli planlaşdırmanın səmərəli fəaliyyətinin təmin edilməsi idarəetmə sisteminin formalaşması əsasında xüsusi bloklarla həyata keçirilə bilər ki, bunlar da özündə müxtəlif tematik

istiqamətin təyinatına, məsələn tikinti təşkilatının təyinatına, müvafiq olan xüsusiləşmiş və qarşılıqlı əlaqəli struktur elementlərini birləşdirir. İstehsalın inkişafı və səmərəliyinin yüksəldilməsində proqram-məqsədli planlaşdırmanın əsas elementlərinə icra edici bloklar aid edilir ki, bunların da dörd blokda birləşdirilməsi təklifi işdə öz əksini tapmışdır:

- istehsalın səmərəliliyinin yüksəldilməsinin təmin edilməsi üzrə diaqnostika və məqsədlərin işlənilməsi blokları;
- hər tematik sahəyə müvafiq olaraq problemin aşkar edilməsi və qiymətləndirilməsinin, inkişafın məqsəd və alt məqsədlərinin dəqiqləşdirilərək qoyulması bloku;
- material və maliyyə resursları arasıında balanslaşdırılmış bölğü üzrə resursların bölüşdürülməsi bloku;
- proqnozların, plan və kompleks proqramların işlənilməsi bloku.

Dayanıqlı istehsalın təşkili prosesinin formalaşması modelinə (şəkil 3)əsasən müəssisənin
idarəetmə strukturu və istehsal bölmələrinin formalaşması bilavasitə təşkilatın sosial inkişafından, onun mövcud istehsal gücünün düzgün müəyyən edilməsindən və inkişafının strateji planlaşdırılmasından, o cümlədən kadr potensialı və əqli mülkiyyətdən formalaşan əqli kapitaldan və istehsalın qiymətləndirilmə kriteriyalarından asılılıdır. Belə ki, əqli kapital bilavasitə müəssisənin mövcud kadr potensialı və onun əqli mülkiyyətindən, istehsalın qiymətləndirilməsi isə texniki, texnoloji, innovativ, kadr və resurs potensiallarının qiymətləndirilmə kriteriyasından asılı olaraq inkişaf edir. Fikrimizcə, bu aspektdə idarəetmənin matris strukturundan istifadə edilməsi məqsədə uyğun hesab edilir.

İdarəetmənin matris strukturuna isə aşağıdakılar xarakterikdir:

- idarəetmənin xüsusi səviyyəsinin tətbiqi ( məqsədli proqramın rəhbəri);
- icra edicilərin ikili tabelikdə olması (proqram və istehsal üzrə);

- xüsusi kollegial orqan-şuranın yaradılması (məqsədli proqramın ali idarəetmə səviyyəsi) və planlı-koordinasiya şöbəsi (orta idarəetmə səviyyəsi);
- proqram üzrə mərkəzləşdirilmiş stimullaşdırıcı material fondunun yaradılması.




**Şəkil 3. Şirkətin dayanıqlı istehsalının təşkili prosesinin modeli**

Qeyd: müəllif tərtib etmişdir

**8. Tikinti şirkətinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsi prosesinin mərhələli alqoritminin təklifi əsasında idarəetmə sisteminin təkmilləşdirilməsinin kompleks modeli işlənilmişdir (12, s.141-152).**

Tikinti şirkətinin təşkilati-iqtisadi strukturunun təkmilləşdirilməsi prosesinin dörd mərhələdən ibarət yerinə yetirilməsi alqoritmi dissertasiya işində müəllif tərəfindən təklif edilmişdir. Bu alqoritmdən istifadə etməklə müəssisənin strateji idarəetmə mexanizminin təkmilləşdirilməsi prosesini yerinə yetirmək mümkündür. Belə ki, xarici mühitdə baş verən dəyişikliklərin konpensasiyası və resursların idarəedilməsi, tikinti müəssisələrinin fəaliyyətinin strateji cəhətdən təhlil edilməsi və onun daxili mühitinin inkişafı haqqında verilən proqnozların həyata keçirilmə baxımından dəqiqliyi, fərdi bölmə və strukturlar üzrə qarşılıqlı əlaqənin maksimum təsirinin aydınlaşdırılması məqsədilə tədqiqat işində müəssisənin strateji idarəetmə mexanizminin kompleks modeli işlənilmişdir (şəkil 4).

**Müəssisənin idarəetmə mexanizmi strateji təhlilin iki istiqamətində formalaşa bilər:**

a) iqtisadi sistemin bütün fəaliyyət blokları, o cümlədən məqsədli, təşkilati - idarəetmə, istehsal-təsərrüfat, maliyyə-iqtisadi və innovasiya-investisiya blokları əsasında;

b) tarazlaşdırılmış strategiyanın formalaşması, inkişafı və realizasiyası, ona operativ nəzarət mexanizminin qurulması, balanslaşdırılmış göstəricilər sisteminin perspektivliyinin müəyyən edilməsi, idarəetmə sisteminin səmərəliliyi və onun təkmilləşdirilməsi əsasında.

Müəssisənin idarəetmə strukturu və fəaliyyətdə olan bölmələrinin formalaşması onun inkişaf strategiyasının planlaşdırılması ilə birbaşa əlaqəlidir. Bu baxımdan, təşkilatın inkişaf strategiyası planlaşdırıldıqda innovtiv və investisiya dəyişikliklərinin nəzərə alınması, o cümlədən yeni standartlara cavab verə biləcək innovativ məhsul istehsalı, elm və texnologiyanın inkişafını əks etdirən proqram məqsədli layihələrdən istifadə, müəssisənin xammal, maliyyə və kadr resurslarının inkişafını təmin edə bilən strateji




**Şəkil 4. İdarəetmə sisteminin təkmilləşdirilməsinin kompleks modeli**

Qeyd: müəllif tərtib etmişdir

inkişaf planı və bütün qeyd edilənlərin əsasında onun idarəetmə strukturunun dəyişməsi vacib şərtlər kimi nəzərdə tutulmalıdır. Bu isə son nəticədə tikinti sektorunda obyektin keyfiyyətli səviyyədə istifadəyə verilməsini və əhalinin mənzilə olan tələbatının həllində dövlətin tikinti şirkətləri qarşısında qoyduğu tələblərin gözlənilməsi şərti ilə yerinə yetirilməsini tələb edir.

Dissertasiyanın "Nəticə" hissəsində tikinti müəssisələrinin səmərəli fəaliyyətinin təkmilləşdirilməsinin təşkilati-iqtisadi

aspektləri ilə bağlı nəticəyə gəlinmiş və elmi cəhətdən əsaslandırılmış təkliflər verilmişdir.

Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər dərc olunmuş aşağıdakı əsərlərdə öz əksini tapmışdır:

1. Almasov N.N. Tikintinin inkişafında dövlət özəl tərəfdaşlığının inkişafının rolu. Əmək və Sosial Münasibətlər Elmi -praktiki jurnal. Bakı, -2019, -№ 2 (12), - s. 125-135

2. Almasov N.N. Tikinti müəssisələrinin istehsal səmərəliyinin yüksəldilməsinə yeni yanaşma. Tikintinin iqtisadiyyatı və menecment Elmi-Praktiki jurnal. Bakı, -2020, № 2,-s. 152-155

3. Almasov N.N. Tikinti müəssisələrinin səmərəli fəaliyyətinin təşkili. ADNSU. ADNSU-nun 100 illiyinə həsr olunmuş elmi konfrans.Bakı, 07 may 2020, - s. 72-76

4. Almasov N.N. Metodology for Calculating the Resource Needs of the Construction İndustry. The 7th İnternationak Conference on Control and Optimization with Industrial Applications. Baku, 26-28 august, 2020, - pp. 98-100

5. Almasov N.N. Tikinti kompleksi müəssisələrinin idarə edilməsinin təşkilati-iqtisadi aspektləri. Tikintinin iqtisadiyyatı və menecment Elmi-Praktiki jurnal. Bakı, -2020, -№ 3 (12), - s. 229-238

6. Алмасов Н.Н.Основные направление повышение эффективности строительного производства в Азербайджане.Журнал Евразийского Научного Объединения.2020, -с.293-296

7.Алмасов Н.Н. Факторы, формирующие развитие строительной отрасли Азербайджана. Журнал ЧУДО НИОЦ (РИНЦ). Чистополь, - 2020, -с.170-176

8. Almasov N.N. Tikiniti sənayesinin inkişafına özəl tikinti-investisiya əməkdaşlığının cəlb edilməsi. Əmək və Sosial Münasibətlər Akademiyası. Beynəlxalq Elmi Praktik Konfrans. Bakı, 5 may 2020, -s.60-63

9. Almasov N.N. Azərbaycan iqtisadiyyatının transformasiyasında tikinti firmalarının rolu. Əmək və Sosial Münasibətlər Elmi -praktiki jurnal. Bakı, -2021, -№ 1 (15), - s. 72-85

10.Almasov N.N. Gurrent aspects in the Personnel Management System. XIX International Scientific and Practical Conference. Gomel, March 17 2021, -pp.94-95

11.Almasov N.N. The programme of reduction and profilling of long-term unemployment in Azerbaijan. The journal of economic sciences: theory and practice. Baku, -2021,-Vol.78, -İssue-1, -pp.40-65

12. Almasov N.N. Tikinti müəssisələrinin idarəetmə sisteminin təkmilləşdirilməsinin kompleks modeli. Kooperasiya Elmi Praktiki jurnalı. Bakı, -2021, -№ 2 (61), - s. 141-152

13. Almasov N.N. Tikintidə təşkilati-iqtisadi aspektlərin idarə edilməsinin matris formasının təşkili. Azərbaycan Əmək Sosial Münasibətlər Akademiyası "Pandemiyanın dünya ölkələrinin sosial-iqtisadi inkişafına təsiri problemləri" mövzusunda Beynəlxalq elmi-praktik konfransı. -2021. -s 161-167

14. Almasov N.N. Model of the İnfluence of İnternal Production Conditions on the Efficiency of Enterprises. Studies of Applied Economics. Buenos Ayres, July 2021, Volume 39-6, -p.1-15

15.Алмасов Н.Н. Стратегии развития строительной сферы в Азербайджане. Материалы - Міжнародноі науково-практичноі інтернет-конфренциіі - Украіна , Дніпро, Унівеситет Митноі Справи Та Фінансів - 2021, 7991, с.176-179

Dissertasiyanın müdafiəsi "_31_" oktyabr 2022-ci il saat 14:00-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.22 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1010, Bakı şəhəri, Azadlıq prospekti, 34, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti.

Dissertasiya və avtoreferat elektron versiyaları ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_30_ " sentyabr 2022-ci ildə göndərilmişdir.

Çapa imzalanıb: “_30_” sentyabr 2022.
Kağızın formatı: A5
Həcmi : (39739 işarə)
Tiraj: 100.